# ƏBƏDİYAŞAR LİDER

**Təhsil millətin gələcəyidir!**

*Heydər Əliyev*





# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

13 dekabr 2025-ci il №47 (9153) www.muallim.edu.az muallim@media.edu.az



# Azərbaycan xalqı Ümummilli Lider Heydər Əliyevin ideyalarına daim sadiq olacaq





**Heydər ƏLİYEV,**
*Ümummilli Lider*

## İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri İlham Əliyev başa çatdıra biləcək

**“Azərbaycan xalqı, Azərbaycan dövləti işğal olunmuş torpaqları mütləq azad edəcəkdir. Onu biz azad edəcəyik, biz!**

**İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm”.**

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət ediblər

Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünyaşöhrətli siyasi xadim, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin vəfatından 22 il ötür.

AZƏRTAC xəbər verir ki, dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət ediblər.

Prezident İlham Əliyev Ulu Öndərin məzarı önünə əklil qoydu.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Dövlətimizin başçısı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsini ehtiramla andılar, məzarı üzərinə gül dəstələri qoydular.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edildi, məzarları üstünə gül dəstələri düzüldü.

***

Azərbaycanın dövlətçilik tarixində xalqımızın Ümummilli Lideri Heydər Əliyevin xidmətləri bütöv bir epoxanı özündə ehtiva edir. Onun dahiyanə siyasi uzaqgörənliyi, dövlət quruculuğu sahəsində atdığı addımlar, müstəqil Azərbaycanın inkişaf strategiyasının əsasını təşkil edən qərarları xalqımızın yaddaşında silinməz iz buraxıb. Ulu Öndərin hakimiyyəti illərində ölkəmizin sabitliyə qovuşması, iqtisadiyyatın dirçəldilməsi, ordu quruculuğunun möhkəmləndirilməsi Azərbaycanın gələcək yüksəlişini təmin edən əsas dayaqlara çevrildi.

Xalqımız ağır və taleyüklü dönəmlərdə Ümummilli Lider Heydər Əliyevin xilaskarlıq missiyasını dərin minnətdarlıqla xatırlayır. Məhz onun rəhbərliyi illərində Azərbaycan qarşılaşdığı təhlükələrdən xilas oldu, milli özünüdərk gücləndi, müstəqilliyimizin əbədiliyi üçün möhkəm təməllər qoyuldu. Hər il dekabrın 12-də və mayın 10-da minlərlə insanın Fəxri xiyabanda Ulu Öndərin məzarını ziyarət etməsi xalqın dahi övladının xatirəsinə əbədi ehtiramının və sədaqətinin bariz ifadəsidir.

Ulu Öndər Heydər Əliyevin ən böyük arzularından biri Azərbaycanın ərazi bütövlüyünün təmin olunması, Qarabağın azad edilməsi idi. Onun bu arzusu illər sonra öz layiqli davamçısı tərəfindən həyata keçirildi. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli mövqeyi və əzmkarlığı nəticəsində Ordumuz tarixi Zəfər qazandı, ölkəmizin ərazi bütövlüyü, suverenliyi bərpa olundu, üçrəngli Bayrağımız işğaldan azad edilmiş şəhər və kəndlərimizdə ucaldıldı.

Bu gün Qarabağda və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı bərpa və quruculuq işləri Azərbaycanın gücünü, həmçinin gələcəyə olan inamını əks etdirir. Azad olunan torpaqlarda yeni həyatın başlanması Ümummilli Lider Heydər Əliyevin dövlətçilik ideyalarının davamlılığının və uğurla həyata keçirilməsinin göstəricisidir.

Ulu Öndərin müəyyənləşdirdiyi inkişaf yolu bu gün də ölkəmizin siyasi və iqtisadi tərəqqisinin əsasını təşkil edir. Prezident İlham Əliyevin apardığı siyasət Azərbaycanın beynəlxalq arenada nüfuzunu artırıb, ölkəmizi bölgədə mühüm tərəfdaş və güclü dövlətə çevirib. Dövlətimizin milli maraqlarının qətiyyətlə müdafiə olunması, təhlükəsizlik və inkişaf strategiyasının ardıcıl şəkildə davam etdirilməsi dahi Heydər Əliyev ideyalarının yaşayaraq inkişaf etdiyini göstərir.

Qəti şəkildə demək olar ki, Azərbaycan xalqı Ümummilli Lider Heydər Əliyevin ideyalarına daim sadiq olacaq, onun müəyyənləşdirdiyi inkişaf yolu ölkəmizi daha böyük uğurlara doğru aparmaqda davam edəcək.

**İlham ƏLİYEV,**
*Azərbaycan Prezidenti*

## Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim

**“Mən bu gün, eyni zamanda, Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!”**

# Heydər Əliyevin zəngin irsi, vətənpərvərlik ideyaları gənc nəslə aşılanır







# MƏN HƏMİŞƏ FƏXR ETMİŞƏM, BU GÜN DƏ FƏXR EDİRƏM Kİ, MƏN AZƏRBAYCANLIYAM!

**"Doğma canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır. Bütün şüurlu ömrümü onun inkişafına, tərəqqisinə həsr etmişəm.**

**Azərbaycan xalqı, Azərbaycan dövləti işğal olunmuş torpaqları mütləq azad edəcəkdir. Onu biz azad edəcəyik, biz!**

**Məktəbin, müəllimlərin ən əsas vəzifəsi bizim cəmiyyətimizə, xalqımıza, ölkəmizə dəyərli vətəndaşlar hazırlamaqdır.**

**Bizim hər birimiz elmi dərəcəmizdən, biliyimizdən, təhsil səviyyəmizdən asılı olmayaraq, bütün nailiyyətlərimizə görə məktəbə, müəllimə borcluyuq.**

**Vətənpərvərlik böyük məfhumdur. Bu, sadəcə, orduda xidmət etmək deyil. Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq - budur vətənpərvərlik.**

**Milli ideologiyamızı hər yerdə tətbiq etmək üçün məktəblərdə Azərbaycan xalqının tarixinin tədrisinə çox ciddi fikir vermək lazımdır... Gənclərimiz öz tarixini, öz tarixi keçmişini gərək yaxşı bilsinlər".**



## Fəxri xiyaban ziyarət edilib



Dekabrın 12-də Ümummilli Lider Heydər Əliyevin anım günü ilə əlaqədar Elm və Təhsil Nazirliyinin kollektivi Fəxri xiyabanda Ulu Öndərin məzarını ziyarət edib, önünə gül dəstələri qoyaraq xatirəsini ehtiramla anıb.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsi də ehtiramla yad edilib, məzarı önünə tər çiçəklər düzülüb.

## Dahi Liderə ehtiramla

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki təhsil müəssisələrində Ulu Öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş tədbirlər keçirilib. Ümummilli Liderin anım günü ilə əlaqədar təhsil müəssisələrində konfrans, "dəyirmi masa", mühazirə və seminarlar, sərgi, müsabiqə və idman yarışları təşkil olunub. Anım tədbirlərində Dahi Liderin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirlərdə Heydər Əliyevin Azərbaycanın taleyində oynadığı misilsiz roldan, müasir Azərbaycanın dövlətçilik ənənələrinin formalaşmasında göstərdiyi xidmətlərdən danışılıb, şagirdlərə Ulu Öndərin uzaqgörən siyasətinin bu gün də dövlətimizin davamlı inkişafının əsasını təşkil etdiyi barədə ətraflı məlumat verilib. Bildirilib ki, Heydər Əliyevin ideyaları digər sahələrdə olduğu kimi, bu gün də ölkənin təhsil siyasətinin əsas istiqamətlərindən birini təşkil edir.

Tədbirlərdə Heydər Əliyevin həyat və fəaliyyətinə dair videoçarxlar təqdim olunub, həmçinin məktəblilər Ulu Öndərə həsr olunan ədəbi-bədii kompozisiyalar nümayiş etdiriblər.

Paytaxt məktəblərinin müəllim və şagird kollektivlərinin Heydər Əliyevin anım günü ilə bağlı Fəxri xiyabana ziyarətləri də təşkil olunub.

Qeyd edək ki, anım tədbirlərinin əsas məqsədi Azərbaycanın dövlətçilik tarixində müstəsna xidmətləri olan Heydər Əliyevin zəngin irsinin, onun vətənpərvərlik ideyalarının gənc nəslə aşılanması, eləcə də məktəblilər arasında milli-mənəvi dəyərlərin təbliğ olunmasından ibarətdir.

## Ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimi keçirilib



Dekabrın 12-də Elm və Təhsil Nazirliyinin təşkilatçılığı ilə Bakı Musiqi Akademiyasında Ümummilli Lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimi keçirilib.

Açılış nitqi ilə çıxış edən Akademiyanın rektoru Fərhad Bədəlbəyli Ulu Öndərlə bağlı xatirələrini bölüşüb, Heydər Əliyevin Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərindən söz açıb.

Mərasimdə iştirak edən Milli Məclisin Mədəniyyət komitəsinin sədri Polad Bülbüloğlu Ümummilli Lider Heydər Əliyevin mədəniyyət sahəsinə bağlılığından, Ulu Öndərin daima mədəniyyət xadimlərinə olan diqqətindən danışıb.

Elm və Təhsil Nazirliyinin rəhbərliyi və kollektivinin, eləcə də ali təhsil müəssisələrinin rektorlarının iştirak etdiyi mərasimdə çıxışlardan sonra mahnı və romanslar səsləndirilib.





# Heydər Əliyev Fondu İslam dünyasında təhsilin gücləndirilməsində əvəzsiz rol oynayır








Dekabrın 8-də Heydər Əliyev Mərkəzində "İslam dünyasında süni intellekt indeksinin təqdimatı" beynəlxalq konfransının açılışı olub.

Heydər Əliyev Fondunun, Elm və Təhsil Nazirliyinin təşkilatçılığı və ICESCO-nun tərəfdaşlığı ilə keçirilən konfransın məqsədi İslam dünyasında süni intellekt üzrə əməkdaşlığı gücləndirmək, həmçinin süni intellektin etik, sosial və iqtisadi təsirlərini müzakirə etməkdir.

Qeyd edək ki, süni intellektin inkişaf trendlərinin elmi əsaslarla ölçülməsi üçün hazırlanmış "İslam dünyasında süni intellekt indeksi" sənədi də məhz ilk dəfə Bakı konfransında təqdim olunur.



## Bakıda "İslam dünyasında süni intellekt indeksinin təqdimatı" adlı beynəlxalq konfrans keçirilib

Konfransın açılışında çıxış edən Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva bildirib ki, süni intellekt (AI) artıq gündəlik həyatın mühüm bir hissəsinə çevrilib. Onun sözlərinə görə, bu sahə böyük imkanlar yaratmaqla yanaşı, yeni suallar və məsuliyyətlər də ortaya çıxarır. Cəmiyyətin süni intellektin təsirini düzgün qiymətləndirməsinin, gənclərin risklərdən qorunaraq bu texnologiyanın imkanlarına yönləndirilməsinin vacibliyi xüsusi qeyd olunub.

Heydər Əliyev Fondunun vitse-prezidenti diqqətə çatdırıb ki, Azərbaycan bu istiqamətdə ardıcıl addımlar atır. 2025—2028-ci illər üçün Milli Süni İntellekt Strategiyası çərçivəsində milli süni intellekt ekosisteminin qurulması, dövlət xidmətləri üçün Azərbaycan dilində AI modelinin hazırlanması, dövlət qurumları üçün standartların müəyyənləşdirilməsi və Süni İntellekt Akademiyasının yaradılması nəzərdə tutulur.

Leyla Əliyeva Heydər Əliyev Fondunun artıq 20 ildir təhsili fəaliyyətinin əsas istiqaməti kimi müəyyən etdiyini xatırladıb. Deyib ki, Fond bu müddət ərzində Azərbaycanda 500-dən çox məktəb binası inşa edib və yenidən qurub, uşaq bağçalarını və internat müəssisələrini modernləşdirib, minlərlə uşağı müasir tədris vasitələri ilə təmin edib.

O diqqətə çatdırıb ki, süni intellekt dövrünə keçid bu missiyanın əhəmiyyətini daha da artırır. Onun fikrincə, süni intellekt, sadəcə, texnologiya deyil, hər bir uşaq üçün yeni imkan deməkdir.

Heydər Əliyev Fondunun vitse-prezidenti, həmçinin vurğulayıb ki, süni intellekt ətraf mühitin qorunmasında da mühüm rol oynaya bilər. Nadir heyvan növlərinin izlənməsi, iqlim dəyişikliklərinə nəzarət, meşələrin mühafizəsi, su ehtiyatlarının qorunması və dayanıqlı kənd təsərrüfatının inkişafı bu imkanlar sırasındadır.

Leyla Əliyeva çıxışında ICESCO ilə əməkdaşlığa da toxunub. Bu tərəfdaşlıq çərçivəsində Burkina-Fasoda məcburi köçkün qızlar üçün məktəblərin inşası, eləcə də Mali, Çad və Komor adalarında layihələrin davam etdirildiyi diqqətə çatdırılıb. Vurğulanıb ki, BMT-nin İnkişaf Proqramı ilə birgə gənclər və əlilliyi olan şəxslər üçün regional informasiya və kommunikasiya texnologiyaları mərkəzlərinin yaradılması bu istiqamətdə həyata keçirilən mühüm işlərdəndir.

Elm və təhsil naziri Emin Əmrullayev çıxışında bildirib ki, Heydər Əliyev Fondu uzun illərdir təhsil sahəsində mükəmməlliyi təşviq edir, innovativ təşəbbüsləri dəstəkləyir, uşaqlar və gənclər üçün geniş imkanlar yaradır. Fondun fəaliyyəti həm Azərbaycanda, həm də İslam dünyasında təhsilin gücləndirilməsində əvəzsiz rol oynayır. Nazir diqqətə çatdırıb ki, Elm və Təhsil Nazirliyi Heydər Əliyev Fondu ilə birlikdə cəmiyyətin sosial və mədəni inkişafına





töhfə verən ortaq məqsədlərin həyata keçirilməsindən qürur duyur. Emin Əmrullayev vurğulayıb ki, süni intellekt artıq həyatımıza, iş fəaliyyətimizə və öyrənmə proseslərimizə təsir göstərir. Süni intellekt daha güclü, daha ədalətli və fərdi öyrənənlərə uyğunlaşdırılmış təhsil sistemlərinin qurulması üçün böyük potensiala malikdir. Lakin bu texnologiyadan məsuliyyətlə, etik prinsiplərə uyğun və düşünülmüş şəkildə istifadə olunmalıdır.

ICESCO-nun Baş direktoru Səlim bin Məhəmməd əl-Malik çıxışında qeyd edib ki, bəşəriyyət yeni bir mərhələnin — süni intellekt dövrünün astanasındadır. Bu, bacarıqları və təsiri formalaşdıran qüvvədir. O bildirib ki, süni intellekt artıq strateji hədəfə çevrilib: onu qəbul edənlər inkişafı sürətləndirir, ona qarşı çıxanlar isə tərəqqinin başqa istiqamətlərdə getdiyini görür və geridə qalacaqlar.

O əlavə edib ki, süni intellekt yalnız texnologiya deyil, həm də imkan yaradan bir vasitədir. Onun tətbiqi təhsil, səhiyyə, idarəetmə və digər sahələrdə innovativ həllər təqdim edir.

ICESCO-nun Baş direktoru ölkələrimiz arasında mövcud əməkdaşlığın yüksək səviyyədə olduğunu vurğulayıb.

Sonra konfrans çərçivəsində ICESCO və Həmdan Bin Rəşid Əl Maktum Fondunun 4-cü birgə "Həmdan-ICESCO" mükafatının təqdimatı mərasimi keçirilib.

Qeyd edək ki, bu mükafat İslam dünyası ölkələrində tədris müəssisələrinin inkişafına və təhsil mühitinin dəstəklənməsi təşəbbüslərinə töhfələrə görə təqdim edilir. Heydər Əliyev Fondu İslam dünyası və digər ölkələrdə məktəblərin tikinti-bərpasına yönələn təhsil və sosial dəstək üzrə layihələrinə görə bu mükafatla təltif olunur.

Mükafat, eyni zamanda, Yəmənin Hadramaut Təhsil İnkişaf Fondu və Mərakeşin Birinci Səviyyə Təhsil Fonduna təqdim edilib.

Həmdan Bin Rəşid Əl Maktum Fondunun ali sədri Şeyx Rəşid bin Həmdan bin Rəşid Əl Maktum çıxışında "Həmdan-ICESCO" mükafatı qaliblərini təbrik edib. Bildirib ki, onlar bu gün təhsil mühitinə və təhsil alanlara qayğı göstərən xeyriyyə təşkilatları, donorlar və ianəçilər üçün fəxr və ilham mənbəyi olublar. Qeyd edib ki, təhsilə dəstək üçün könüllülük səylərinin mədəniyyətini və təsirini yaymaq məsuliyyətindən geri çəkilməyəcəklər.

Konfrans daha sonra "Təhsildə innovasiya: süni intellektin İslam dünyasında təsiri və imkanları" mövzusunda panel müzakirələrlə davam edib.

Müzakirələrdən əvvəl çıxış edənlər vurğulayıblar ki, süni intellekt artıq həyatımızın müxtəlif sahələrinə təsir göstərir və gələcək nəsillərin inkişafında mühüm rol oynayacaq.

Qeyd edilib ki, təhsil sistemi və elm sahəsində süni intellektin tətbiqi tədris prosesini daha səmərəli, innovativ və interaktiv hala gətirir.

Bildirilib ki, süni intellekt tədqiqat sahələrində yeni imkanlar yaradır, iqtisadiyyatın müxtəlif istiqamətlərində səmərəliliyi artırır və gələcək iş bazarının tələblərinə uyğun peşələrin inkişafına təkan verir.

Daha sonra ICESCO-nun Perspektiv Araşdırmaları və Süni İntellekt Mərkəzinin nümayəndəsi Viam Şafikin moderatorluğu ilə keçirilən paneldə çıxış edənlər ölkələr arasında təcrübə mübadiləsinin, əməkdaşlığın və süni intellekt sahəsində regional təşəbbüslərin gücləndirilməsinin əhəmiyyətini diqqətə çatdırıblar.

Digər paneldə çıxış edən qonaqlar süni intellekt sahəsində ölkələrarası əlaqələndirmənin gücləndirilməsinin, etik və sosial-iqtisadi aspektlərin araşdırılmasının, dayanıqlı və inklüziv texnoloji inkişafın təmin olunmasının önəmini vurğulayıblar. Qeyd edilib ki, bu təşəbbüslər yalnız texnoloji tərəqqiyə deyil, həm də insan kapitalının inkişafına, təhsil keyfiyyətinin yüksəlməsinə və regional əməkdaşlığın dərinləşməsinə töhfə verir.

Konfransın sonunda İslam dünyasında süni intellekt indeksi üzrə Bakı Bəyannaməsi qəbul edilib.

Sənəddə bildirilir ki, İslam dünyası süni intellektin cəmiyyətlərə və iqtisadiyyatlara dərin təsirini qəbul edir, süni intellekt indeksini rəqəmsal dövrdə ICESCO-nun təhsil, elm və mədəniyyətin inkişafı missiyasını yerinə yetirmək üçün həyati əhəmiyyətli yeni bir vasitə kimi alqışlayır, süni intellektin təhsil, səhiyyə, mədəni mühafizə, iqtisadi inkişaf və ətraf mühitin idarə olunmasını inkişaf etdirmək potensialını nəzərə alaraq, eyni zamanda, sui-istifadə, bərabərsizlik və təhlükəsizlik tədbirlərinin olmaması kimi riskləri də qəbul edir.

ICESCO-ya üzv dövlətlər və beynəlxalq tərəfdaşlar əməkdaşlığı gücləndirmək əzmini, İslam dünyasının dəyərlərinin və istəklərinin beynəlxalq süni intellekt müzakirələrində təmsil olunmasını təmin etmək öhdəliyini bir daha təsdiqləyirlər. Üzv dövlətlər bəyan edirlər ki, Bakıda süni intellekt indeksinin təqdimatı İslam dünyası üçün əməkdaşlığın yeni mərhələsinin əsasını qoyur.

Sənəd beynəlxalq təşkilatlarla konstruktiv əməkdaşlığı, birgə layihələrin reallaşdırılmasını təşviq edir, sülhə, inkişafa və gələcək nəsillərin rifahını təmin etmək öhdəliyini təsdiqləyir. Üzv dövlətlər Bəyannamə əsasında milli süni intellekt strategiyaları hazırlayıb etik təhlükəsizlik tədbirlərini, sektor prioritetlərini və inklüziv inkişafı təmin edə biləcəklər.

Həmçinin qonaqlar konfrans çərçivəsində Heydər Əliyev Mərkəzində təqdim olunan "Mənim dənizlərim, mənim okeanlarım" ("My Seas, My Oceans") sərgisinə baxıblar. Sərgi iqlim dəyişikliyi, qlobal istiləşmə və həssas ekosistemlər dövründə planetimizin ən həyati ehtiyatlarından biri — su mənbələrinin qorunmasının vacibliyini vurğulamaq məqsədi daşıyır.

## Heydər Əliyev Fondu ilə ICESCO arasında saziş imzalanıb



Bakıda keçirilən "İslam dünyasında süni intellekt indeksinin təqdimatı" beynəlxalq konfransı çərçivəsində dekabrın 8-də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva ICESCO-nun Baş direktoru Səlim bin Məhəmməd əl-Maliklə görüşüb.

AZƏRTAC xəbər verir ki, ICESCO-nun Baş direktoru yenidən Azərbaycanda olmaqdan məmnunluğunu bildirib, süni intellekt indeksinin təqdimatı ilə bağlı beynəlxalq tədbirin Bakıda yüksək səviyyədə təşkilinə görə minnətdarlığını ifadə edib.

Qonaq beynəlxalq konfransda aparılan fikir mübadiləsi, keçirilən görüşlərin süni intellekt sahəsində İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatına (ICESCO) üzv dövlətlər arasında əməkdaşlığın genişləndirilməsinə töhfə olacağına əminliyini bildirib.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva ölkəmizə davamlı dəstəyinə və mədəniyyətimizin təşviqinə istiqamətlənən tədbirlərə görə ICESCO-ya minnətdarlığını çatdırıb.

Ölkəmizlə ICESCO arasında mövcud olan uğurlu əməkdaşlığın, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun ICESCO ilə səmərəli və sıx əlaqələrinin bu işbirliyinin daha da genişləndirilməsinə xidmət etdiyi vurğulanıb, iki qurum arasında elm, təhsil, mədəniyyət sahələrində gələcək layihələr ətrafında fikir mübadiləsi aparılıb.

Görüşün sonunda Heydər Əliyev Fondu ilə ICESCO arasında Nigerin üç regionunda münaqişədən zərər çəkmiş qadınların imkanlarının genişləndirilməsi və sosial inklüzivlik istiqamətində həyata keçirilən layihə ilə bağlı saziş imzalanıb.

# HƏR BİR VƏTƏNDAŞIN AZƏRBAYCAN DİLİNİ MÜKƏMMƏL BİLMƏSİ DÖVLƏTİN ƏSAS MƏQSƏDLƏRİNDƏN BİRİDİR




## Parlamentdə Azərbaycan dilinin inkişaf strategiyasına həsr olunmuş konfrans keçirilib

Dekabrın 8-də Milli Məclisdə “Azərbaycan dilinin dövlət dili kimi inkişaf strategiyası: mövcud vəziyyət və perspektivlər” adlı konfrans keçirilib. AZƏRTAC xəbər verir ki, konfransda hökumət üzvləri və nümayəndələri, dilçi-alimlər, ədəbiyyat xadimləri, media sahəsində fəaliyyət göstərən qurumların rəhbərləri, Milli Məclisin deputatları, Parlament Aparatının məsul şəxsləri və aidiyyəti qurumların nümayəndələri iştirak ediblər.

Milli Məclisin sədri Sahibə Qafarova bildirib ki, konfransın məqsədi Azərbaycan dilinin qorunması və inkişafı strategiyalarını müzakirə etmək, bu istiqamətdə parlamentin, elmi ictimaiyyətin və ziyalıların vəzifələrini müəyyən etməkdir. O qeyd edib ki, dilimizin qorunması sahəsində, həm də dövlət dili səviyyəsinə yüksəldilməsi istiqamətində Ulu Öndər Heydər Əliyevin atdığı tarixi addımlar danılmazdır.

S.Qafarova diqqətə çatdırıb ki, Azərbaycan dilinin qarşısında müasir dünyanın dinamikasından irəli gələn yeni vəzifələr dayanır. Bu vəzifələr dilin saflığının qorunması, rəqəmsallaşma və yeni texnologiyalara inteqrasiyası, terminologiyaların elmi əsaslarla yenilənməsi və s. ibarətdir. Bütün bu çağırışların təhlili onu göstərir ki, Azərbaycan dilinin yeni inkişaf mərhələsinə qədəm qoyması sistemli, uzunmüddətli və elmi cəhətdən əsaslandırılmış bir yanaşma tələb edir. Odur ki, gələcək dil siyasətinin strateji istiqamətlərini müəyyən etmək ən vacib vəzifələrdən biridir.

Dil siyasətinin yeni mərhələsindən danışan Sahibə Qafarova diqqətə çatdırıb ki, qarşıya qoyulan əsas hədəflər arasında Təhsildə müasir metod və texnologiyalarla dil tədrisinin təkmilləşdirilməsi, Mediada və ictimai məkanda ədəbi dil normalarına əməl olunmasının gücləndirilməsi, Terminologiyanın geniş elmi bazada eyniləşdirilməsi və yenilənməsi, Azərbaycan dilinin dünya elmi və mədəni məkanında nüfuzunun artırılması, Azərbaycan dilinin rəqəmsal və texnoloji platformalarda tam funksional tətbiqi, Süni intellekt sistemlərinə dilimizin inteqrasiya səviyyəsinin yüksəldilməsi əsas prioritetlər sırasındadır.

Tədbirdə elm və təhsil naziri Emin Əmrullayev, AMEA-nın prezidenti, Toponimiya komissiyasının sədri akademik İsa Həbibbəyli, Milli Məclis sədrinin müavini Rafael Hüseynov, Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar Rzayev, Xalq şairi Sabir Rüstəmxanlı, AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun direktoru Nadir Məmmədli, Audiovizual Şuranın sədri İsmət Səttarov və digərləri çıxış ediblər.

Çıxış edənlər Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubiley yığıncağında Prezident İlham Əliyevin dil siyasəti ilə bağlı səsləndirdiyi fikirləri Azərbaycan dilinin gələcək inkişaf strategiyasını müəyyən edən fundamental tezislər kimi dəyərləndiriblər.

Qeyd olunub ki, Ulu Öndər Heydər Əliyevin Azərbaycan dilinin müdafiəsi sahəsində həyata keçirdiyi tarixi siyasətin bu gün Prezident İlham Əliyev tərəfindən davam etdirilməsi dövlət dilinin inkişafında yeni mərhələnin əsasını qoyur. Bildiriblər ki, Azərbaycan dili dövlətçiliyin və xalqın birliyinin mühüm atributu kimi qorunmalı və inkişaf etdirilməlidir.

Çıxışlarda Azərbaycan dilinin saflığının qorunması, mediada dilin düzgün istifadəsi, rəsmi, mədəni və işgüzar mühitdə, ədəbiyyatda, ümumiyyətlə, ictimai həyatın bütün sahələrində ədəbi dil normalarına riayət olunması, təhsil sistemində Azərbaycan dilinin tədrisinin keyfiyyətinin yüksəldilməsi, elmi-metodik əsaslarının təkmilləşdirilməsi, AMEA-nın dövlət dili siyasətinə elmi dəstəyi, normativ bazanın elmi əsaslarla hazırlanması və dövrün çağırışlarına uyğun yenilənməsi, Azərbaycan toponimlərinin qorunması ilə bağlı fikirlər bildirilib, rəy və təkliflər səsləndirilib.



### Emin ƏMRULLAYEV:

**“Azərbaycan Respublikası vətəndaşlarının Azərbaycan dilini mükəmməl bilməsi dövlətin əsas məqsədlərindən biridir. Elm və Təhsil Nazirliyi olaraq son illərdə bu istiqamətdə mövcud imkanlar daxilində bir sıra mühüm qərarlar qəbul etmişik və düşünürəm ki, bu qərarlar gələcəkdə də ardıcıl şəkildə davam etdiriləcək. Bu qərarlardan biri tədris planlarında Azərbaycan dili dərs saatlarının artırılmasıdır. Eyni zamanda müxtəlif fənlərin, o cümlədən Azərbaycan tarixi fənninin artıq 6-cı sinifdən başlayaraq tədris dilindən asılı olmayaraq Azərbaycan dilində keçirilməsi təmin edilib. Bununla yanaşı, çağırışaqədərki hərbi hazırlıq fənninin də Azərbaycan dilində tədrisi tətbiq olunur. Ümumilikdə, ayrı-ayrı fənlərin Azərbaycan dilində tədrisi həm Azərbaycan dilində ümumi tədris saatlarının artması, həm də bu istiqamətdə şagirdlərin dil bacarıqlarının və səriştələrinin inkişafı deməkdir”.**

# Elm və təhsil naziri ICESCO-nun Baş direktoru ilə görüşüb

Dekabrın 9-da elm və təhsil naziri Emin Əmrullayev İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) Baş direktoru Salim bin Məhəmməd əl-Malik ilə görüşüb.

Görüş zamanı Heydər Əliyev Fondu, Elm və Təhsil Nazirliyi və ICESCO-nun birgə təşəbbüsü ilə keçirilmiş “İslam Dünyası üçün Süni İntellekt İndeksinin Təqdimatı” adlı beynəlxalq konfransın nəticələri və bu istiqamətdə həyata keçirilə bilinəcək növbəti addımlar müzakirə edilib.

Eyni zamanda, görüşdə iki qurum arasında mövcud əməkdaşlıq çərçivəsində həyata keçirilən fəaliyyətlər və gələcək inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.



# Emin Əmrullayev Qazaxıstanın elm və ali təhsil nazirinin müavini və ölkəmizdəki səfiri ilə görüşüb

Dekabrın 9-da elm və təhsil naziri Emin Əmrullayev Qazaxıstan Respublikasının elm və ali təhsil nazirinin müavini Talgat Yeshenkulov ilə görüşüb.

Görüş çərçivəsində Qazaxıstan Respublikası ilə elm və ali təhsil sahəsində cari əməkdaşlıq, eləcə də inkişaf perspektivləri müzakirə edilib.




***

Dekabrın 12-də elm və təhsil naziri Emin Əmrullayev Qazaxıstan Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Alim Bayelin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Görüş çərçivəsində iki ölkə arasında elm və təhsil sahəsində mövcud əməkdaşlığın cari vəziyyəti müzakirə edilib. Həmçinin, Qazaxıstanın təhsil sahəsində fəaliyyət göstərən bir sıra şirkətlərinin təqdimatları dinlənilib.





# Elm və təhsil naziri Gürcüstanda 53 nömrəli məktəbdə olub



Elm və təhsil naziri Emin Əmrullayevin rəhbərlik etdiyi nümayəndə heyəti Gürcüstanda 53 nömrəli məktəbə səfər edib. Səfər çərçivəsində elm və təhsil naziri ümumi təhsil sahəsində əməkdaşlıq, o cümlədən sözügedən məktəbdə STEAM Mərkəzinin yaradılması istiqamətində müzakirələr aparıb.



# İqlim dəyişikliyi və süni intellektlə bağlı tədqiqatların həcmi artıb

Dekabrın 8-də Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin təşkilatçılığı ilə "İqlim dəyişikliyi ilə mübarizədə süni intellektin rolu" mövzusunda elmi-praktik konfrans keçirilib.

Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov açılış nitqi ilə çıxış edərək süni intellektin iqlim dəyişikliyinə təsirinin araşdırılmasından, onun tətbiqinin üstünlüklərindən və gələcək perspektivlərindən söhbət açıb. Komitə sədri ölkəmizdə süni intellektin inkişafının dövlət səviyyəsində prioritet məsələlərdən olduğunu söyləyib.

Sadiq Qurbanov nəzərə çatdırıb ki, süni intellekt sahəsində həyata keçirilən islahatların, o cümlədən 2025-2028-ci illər üçün Süni intellekt Strategiyasının səmərəli icrası, eyni zamanda qanunverici hakimiyyətdən ardıcıl və məqsədyönlü yanaşma tələb edir. Komitə sədri bu baxımdan süni intellektin tətbiqini, məlumatların idarə olunmasını, etik standartları, kibertəhlükəsizliyi, ekologiya və iqlim üzrə tənzimləyici vəzifələrin təkmilləşdirilməsini nəzərdə tutan müasir qanunvericilik bazasının formalaşdırılmasının vacibliyini qeyd edib.



## Elm və təhsil nazirinin müavini "İqlim dəyişikliyi ilə mübarizədə süni intellektin rolu" mövzusunda elmi-praktik konfransda iştirak edib



Konfransda iştirak edən elm və təhsil nazirinin müavini Firudin Qurbanov çıxışında bildirib ki, qlobal iqlim dəyişiklikləri, enerji təhlükəsizliyi və rəqəmsallaşma prosesləri fonunda Elm və Təhsil Nazirliyinin tabeliyində olan elm və ali təhsil müəssisələrində iqlim dəyişikliyi və süni intellektlə bağlı tədqiqatların həcmi son illərdə xeyli artıb. Müvafiq elmi istiqamətlər üzrə kadr potensialının gücləndirilməsi məqsədilə bir neçə ali təhsil müəssisəsində müasir rəqəmsal texnologiyalar və süni intellekt fənlərinin iqlim və ekoloji ixtisaslarla inteqrasiyası istiqamətində addımlar atılır.

Nazir müavini qeyd edib ki, elm və ali təhsil müəssisələrində aparılan elmi işlər əsasən iqlim dəyişikliklərinin proqnozlaşdırılması, ekosistemlərə təsirin qiymətləndirilməsi, eləcə də süni intellekt istiqamətlərini əhatə edir. Ümumilikdə, Elm və Təhsil Nazirliyinin tabeliyində olan elm və ali təhsil müəssisələrində "İqlim dəyişikliyi və süni intellekt" sahəsində aparılan elmi-tədqiqat işləri iqlim çağırışlarına elmi əsaslı cavabların hazırlanmasına, süni intellekt texnologiyalarının milli prioritetlərə uyğun tətbiqinə və dayanıqlı inkişaf məqsədlərinə töhfə verməyə yönəlib.

İclasda çıxış edən digər qonaqlar süni intellekt texnologiyalarının son illərdə sürətlə inkişaf etdiyini və iqlim dəyişikliklərinə qarşı mübarizədə böyük potensiala malik olduğunu bildiriblər. Çıxışlarda süni intellekt vasitəsilə iqlim dəyişikliklərinin təsirlərinin qabaqcadan təhlili, təbii fəlakət risklərinin azaldılması və ekosistemlərin qorunması sahələrində yeniliklərin əldə edilməsindən söhbət açılıb. Ətraf mühitin qorunması və karbon emissiyalarının azaldılması istiqamətində süni intellektin mühüm töhfələr verdiyi qeyd olunub. Süni intellektin iqlim dəyişikliyi ilə mübarizədə enerji səmərəliliyinin artırılması, proqnozlaşdırma, dayanıqlı kənd təsərrüfatı kimi sahələrdə əsas alətə çevrildiyi vurğulanıb. Həmçinin, süni intellektin sənayelərin transformasiyasına və iqlim tədbirlərinin həyata keçirilməsinə verdiyi töhfələr qeyd edilib. Bu texnologiyaların enerji və su səmərəliliyinin artırılmasında, hava şəraitinin proqnozlaşdırılmasında və çirklənmənin azaldılmasında oynadığı roldan danışılıb.

Müzakirələrdə süni intellektin tətbiqi sahəsində dünya təcrübəsindən bəhs edilib, süni intellekt sahəsində data və infrastrukturun formalaşdırılması, insan amilinin təsiri, məlumatların idarə edilməsi, infrastrukturun təkmilləşdirilməsi, süni intellekt modellərinin tətbiqi sayəsində əldə ediləcək nəticələr barədə fikirlər açıqlanıb, habelə Süni intellekt Strategiyası çərçivəsində maarifləndirmə, ictimaiyyətin məlumatlandırılması, o cümlədən süni intellektin potensialı və riskləri haqqında təşviqat işinin aparılmasının rolundan danışılıb.

# Firudin Qurbanov BSU-nun tələbələri ilə görüş keçirib



## Nazir müavini tələbələrin çoxsaylı suallarını cavablandırıb

Dekabrın 11-də Bakı Slavyan Universitetində (BSU) elm və təhsil nazirinin müavini Firudin Qurbanov universitetin tələbələri ilə görüşüb.



Açılış nitqində rektor Anar Nağıyev Azərbaycan gəncliyinin ölkəmizin gələcək inkişafında rolunun xüsusi əhəmiyyətini vurğulayıb. Anar Nağıyev gənclərin Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu dövlətçilik ideyalarına sadiq, Prezident İlham Əliyevin müəyyən etdiyi inkişaf və Zəfər yoluna layiq vətəndaşlar kimi formalaşmasının vacibliyini qeyd edib.



Elm və təhsil nazirinin müavini Firudin Qurbanov çıxışında ölkəmizin ən çətin dövrlərində xalqın tələbi ilə yenidən hakimiyyətə gələn Ulu Öndər Heydər Əliyevin Azərbaycanın inkişafında müstəsna rolunu vurğulayıb. Firudin Qurbanov qeyd edib ki, bu gün güclü iqtisadiyyata malik olmağımızın təməli məhz Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub və onun layiqli davamçısı, Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində Azərbaycanda güclü, eləcə də dayanıqlı iqtisadiyyat formalaşdırılıb.

Nazir müavini çıxışında Heydər Əliyevin təhsilə və gənclərə daim xüsusi diqqət göstərdiyini qeyd edərək bildirib ki, məhz ulu öndərin uzaqgörən siyasəti və Prezident İlham Əliyevin siyasi iradəsi nəticəsində Azərbaycan xalqı 44 günlük Vətən müharibəsində qələbə qazanaraq qalib xalq kimi tarixə düşdü. Nazir müavini vurğulayıb ki, Vətən müharibəsində təhsil işçilərinin də fəal iştirakı təhsil müəssisələrində vətənpərvərlik tərbiyəsinin yüksək səviyyədə həyata keçirildiyini bir daha sübut edir. Bundan əlavə, ana dili biliklərinə göstərilən diqqət də Ulu Öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin siyasətinin mühüm istiqamətlərindən biridir.

Nazir müavini Elm və Təhsil Nazirliyi tərəfindən həyata keçirilən layihələr və proqramlar barədə məlumat verib, işğaldan azad edilmiş ərazilərdə təhsil sahəsində görülən işləri xüsusi vurğulayıb.

Çıxışının davamında nazir müavini gənclərin ölkənin gələcək inkişafındakı rolunu, müasir texnologiyaların və sosial şəbəkələrin təsirini, insan kapitalının formalaşdırılmasının əhəmiyyətini, peşə təhsili və yaradıcı təfəkkürün inkişafdakı rolunu qeyd edib və innovasiya mühitinin formalaşdırılmasının vacibliyini diqqətə çatdırıb.

Sual-cavab formatında davam edən görüşdə tələbələrin çoxsaylı sualları cavablandırılıb.

# "Ümumi təhsildə keyfiyyətin yüksəldilməsi: təcrübələr və yeni yanaşmalar"

## Elmi-praktik beynəlxalq konfrans keçirilib

Dekabrın 9-da Azərbaycan Respublikasının Təhsil İnstitutunun (ARTİ) təşkilatçılığı ilə "Ümumi təhsildə keyfiyyətin yüksəldilməsi: təcrübələr və yeni yanaşmalar" mövzusunda elmi-praktik beynəlxalq konfrans keçirilib. Konfrans Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Ardınca şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.





Salamlama nitqi ilə çıxış edən ARTİ-nin direktoru səlahiyyətlərini icra edən, elm və təhsil nazirinin müşaviri Elnur Əliyev konfransın məqsədi barədə məlumat verib. Bildirib ki, konfransın keçirilməsində əsas məqsəd ümumi təhsil sistemində keyfiyyətin artırılması istiqamətində həyata keçirilən islahatların, beynəlxalq təcrübələrin və yeni yanaşmaların müzakirəsi, həmçinin məktəb liderləri, inspektorlar və təhsil mütəxəssisləri arasında peşəkar dialoqun gücləndirilməsidir.

Çıxış edən elm və təhsil nazirinin müavini Kənan Kərimzadə ümumi təhsildə keyfiyyətin artırılmasının dövlətin uzunmüddətli inkişaf strategiyasındakı mühüm rolundan bəhs edib. Kənan Kərimzadə bildirib ki, məqsədyönlü və məntiqli şəkildə icra olunan islahatlar Azərbaycan təhsilini yeni və yüksək transformasiya mərhələsinə hazırlayıb. Nazir müavininin sözlərinə görə, bu gün təhsil sahəsində aparılan dəyişikliklərin nəticələri artıq yalnız sənəd və strategiyalarda deyil, məktəblərdə, sinif otaqlarında və insanların real həyatında müşahidə olunur. Həyata keçirilən islahatların mərkəzində Azərbaycan müəllimi dayanır.

Kənan Kərimzadə qeyd edib ki, son 20 il ərzində ölkə başçısının diqqət və qayğısı nəticəsində həyata keçirilən proqramlar çərçivəsində ölkə ərazisində 3600-dən çox ümumi təhsil müəssisəsi ya yenidən inşa edilib, ya da əsaslı şəkildə təmir olunub. Görülən bu işlərin nəticəsində 1,3 milyondan çox şagirdimizin təlim və təhsil şəraiti yaxşılaşdırılıb.

Nazir müavini bildirib ki, ölkənin 400-dən çox məktəbində müasir metodik xidmətin tətbiqinə başlanılıb. 2000-dən çox məktəbdə yenilənmiş monitorinqlər aparılır. Eyni zamanda, 80 mindən çox müəllimin sertifikatlaşdırılması həyata keçirilib. Sertifikatlaşdırmadan uğurla keçən müəllimlərin bir hissəsinin əməkhaqqı 35%, digər hissəsinin isə 10% artırılıb.

Çıxışının sonunda təhsilin məqsədinin artıq öyrənmək və öyrətmək olduğunu vurğulayan Kənan Kərimzadə bu konfransın təkcə bilik mübadiləsi ilə bitməyəcəyinə inandığını vurğulayıb və əlavə edib ki, təhsildə keyfiyyət mütləq tamamlanmalı, qorunmalıdır.

Konfransın əsas məruzələri çərçivəsində London Universitet Kollecinin (UCL) Təhsil Liderliyi və İdarəedilməsi üzrə dosenti Devid Qodfrey "Peşəkar inkişaf və məktəb inkişafı üçün birgə öyrənmə" mövzusunda çıxış edib. Devid Qodfrey bildirib ki, ənənəvi sistem fərdi öyrənməyə fokuslanır. Yeni yanaşmada isə komandalar və şəbəkələrin öyrənməsi vacibdir. Ənənəvi yanaşma təşkilati sabitliyə əsaslanır, halbuki yeni dövrdə dəyişikliklərlə yanaşı, davamlılıq da vacibdir. Ənənəvi planlaşdırma qısamüddətli hədəflərə yönəlib. İndi təşkilati yenilənmə və davamlı inkişaf əsas hədəfdir.

Daha sonra isə Elnur Əliyev "Metodik dəstək — keyfiyyətin yüksəldilməsi aləti kimi" mövzusunda təqdimatla çıxış edərək yeni metodik dəstək modelinin mahiyyəti və təhsil müəssisələrində metodik dəstək mexanizmlərinin gücləndirilməsinin əhəmiyyəti barədə danışıb. Bildirib ki, hədəf 2030-cu ilə qədər ölkə üzrə bütün ümumi təhsil müəssisələrində metodik dəstək sistemi qurmaqdır. Bu mexanizmin məqsədi müəllimlərin peşəkar inkişafını, məktəbdaxili pedaqoji mühitin gücləndirilməsini və tədris keyfiyyətinin yüksəldilməsini təmin etməkdir. Əlavə edib ki, metodistlər sertifikatlaşdırma imtahanında yüksək bal toplayan müəllimlər arasından seçilib. Seçilmiş namizədlər 108 saatlıq metodist hazırlığı təliminə cəlb olunub, mütəmadi seminar və peşəkar müzakirələrdən keçiblər. Nəticədə 325 metodist və 22 aparıcı metodist formalaşdırılıb və onlar müxtəlif istiqamətlər üzrə müəllimlərə dəstək göstərməyə başlayıblar.

Beynəlxalq ekspert, Məktəb İnspektorluqlarının Daimi Konfransının (SİCİ) inkişaf üzrə rəhbəri Erik De Bou isə "İnspeksiya prosesində aydın çərçivə və inkişafyönümlü ünsiyyətin məktəb fəaliyyətinin obyektiv dəyərləndirilməsinə və məktəb inkişafına verdiyi töhfə" mövzusunda məruzə təqdim edib. Məktəblərdə keyfiyyətin təmin olunması və qiymətləndirilməsi üçün hazırlanmış çərçivədən danışan xarici mütəxəssisin sözlərinə görə, bu çərçivənin mərkəzində şagirdin inkişafı dayanır. Şagirdin inkişafını isə tədris prosesi, təhsil məqsədləri, monitorinq və yönləndirmə (guidance), məktəbin inkişaf keyfiyyəti, həmçinin maliyyə və maddi resursların idarə olunması əhatə edir.

Növbəti məruzəçi məktəb inspeksiyasında akademik rəhbər Aysel Əzimova "Azərbaycanda məktəb liderliyi praktikalarının formalaşmasında keyfiyyət monitorinqlərinin rolu" mövzusunda çıxış edib. Qeyd edib ki, keyfiyyət monitorinqlərinin əsas məqsədi məktəblərin fəaliyyət göstəricilərinə dair dəqiq və sistemli məlumatların toplanması, təhlili və müvafiq dəstək proqramlarının hazırlanmasıdır.

Konfransın ikinci hissəsi yerli və xarici məruzəçilərin iştirakı ilə panel müzakirələri və vörkşoplarla davam edib.

Konfrans çərçivəsində "Məktəblərdə keyfiyyət mədəniyyətinin formalaşdırılması" və "Məktəblərdə dayanıqlı və real inkişaf strategiyaları" adlı panel müzakirələr və "Məktəblərarası əməkdaşlıqda birgə öyrənmə və inkişaf yanaşmaları", "Tədrisin keyfiyyətinin yüksəldilməsi məqsədilə milli qiymətləndirmə nəticələrindən istifadə" adlı vörkşoplar keçirilib.

Bu sessiyalarda iştirakçılar məktəblərarası əməkdaşlıqda birgə öyrənmə, inkişafyönümlü ünsiyyət və motivasiya, eləcə də milli qiymətləndirmə nəticələrindən istifadəyə dair praktik müzakirələr aparıblar, interaktiv tapşırıqlar vasitəsilə mövzular üzrə real yanaşmaları müzakirə etmək imkanı əldə ediblər.

# Elm və ali təhsil sahəsində əməkdaşlıq genişləndirilir








## Nazir müavini Özbəkistanın ali təhsil, elm və innovasiyalar nazirinin müşaviri, Qırğız Respublikasının təhsil nazirinin müavini və Qazaxıstanın maarif nazirinin müavini ilə görüşüb

Dekabrın 8-də elm və təhsil nazirinin müavini Həsən Həsənli Özbəkistan Respublikasının ali təhsil, elm və innovasiyalar nazirinin müşaviri Aziz Meliboyev, Qırğız Respublikasının təhsil nazirinin müavini Lira Samykbaeva və dekabrın 9-da Qazaxıstan Respublikasının maarif nazirinin müavini Assylbek Akhmetzhanov ilə görüşüb.

Görüş çərçivəsində ölkələr arasında elm və ali təhsil, ümumi təhsil, STEAM, o cümlədən rəqəmsal təhsil sahəsində əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri müzakirə edilib.

# ADNSU "GreenMetric 2025" reytinqində ciddi irəliləyiş əldə edib

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti (ADNSU) nüfuzlu "GreenMetric World University Rankings 2025"də əhəmiyyətli irəliləyiş əldə edib. ADNSU qlobal sıralamada 166 pillə yüksələrək həm yerli, həm də beynəlxalq ali təhsil müəssisələri arasında ən dinamik inkişaf göstərən universitetlərdən biri olub.

Agentlik tərəfindən açıqlanan yeni nəticələrə əsasən, ADNSU 2024-cü illə müqayisədə 2025-ci ildə 6457.5 bal toplayaraq (ötən il 5640 bal olub) 788-ci sıradan 622-ci yerə yüksəlib. Bu uğur universitetin ətraf mühitə məsuliyyət, resursların səmərəli idarə olunması və dayanıqlı akademik inkişaf sahələrində həyata keçirdiyi ardıcıl fəaliyyətlərin göstəricisidir.

Qeyd olunan yüksəliş idarəetmə strukturunun gücləndirilməsi, ətraf mühitə təsirlərin monitorinqinin yaxşılaşdırılması, resurs səmərəliliyinin artırılması və dayanıqlılıq üzrə təhsil imkanlarının genişləndirilməsi ilə əlaqədardır.

2024-dən 2025-ci ilə keçiddə ən böyük inkişaf su idarəetməsi sahəsində qeydə alınıb, bu göstərici 46.88% artaraq bütün dayanıqlılıq indikatorları arasında ən yüksək nəticəni göstərib. Bu artım universitetdə su idarəetməsi, səmərəlilik tədbirləri və suya qənaət mexanizmlərinin əhəmiyyətli şəkildə yaxşılaşdırıldığını göstərir.

İkinci ən böyük artım enerji və iqlim fəaliyyəti sahəsində müşahidə olunub, bu istiqamətdə 32.08% yüksəliş qeydə alınıb. Bu nailiyyət enerji səmərəliliyi təşəbbüslərinin gücləndirilməsi, bərpa olunan enerjiyə keçid tədbirlərinin genişləndirilməsi və iqlim yönümlü siyasətlərin tətbiqi nəticəsində ümumi ekoloji göstəricilərin yaxşılaşdığını təsdiqləyir.

Bu uğurlar ADNSU-nun ətraf mühitə davamlı məsuliyyət öhdəliyini bir daha nümayiş etdirir. Növbəti mərhələdə diqqət dayanıqlı dizaynın daha geniş tətbiqinə, bərpa olunan enerji inteqrasiyasının artırılmasına, tədqiqat potensialının genişləndirilməsinə, məlumatların şəffaflığının yüksəldilməsinə və "sıfır tullantı" strategiyalarının sürətləndirilməsinə yönəldiləcək.

# "İlk iş günümü bugünkü kimi xatırlayıram"

İnsan ömrünün ən dəyərli illəri sevərək seçdiyi peşəyə həsr olunur. Məhz həmin sahədə fasiləsiz olaraq çalışmaq təkcə şəxsi həyat yolunu deyil, özündə uzunillik bir əmək təcrübəsini formalaşdırır. Elə insanlar da var ki, onların fəaliyyəti səssiz, sakit, təvazökar görünür, amma arxasında on illərin zəhməti, məsuliyyəti və vicdanlı əməyin izi dayanır. Elm və Təhsil Nazirliyinin Təhsilin iqtisadiyyatı şöbəsinin Statistika və hesabatların icmallaşdırılması sektorunda baş məsləhətçisi vəzifəsində çalışan Suriyyə Nağıyeva da 45 illik əmək fəaliyyətini geridə qoyan həmin xoşbəxt insanlardandır.





Ömrünü Azərbaycan təhsilinin statistik əsaslarının qurulmasına, inkişafına və mükəmməlləşdirilməsinə həsr etmiş Suriyyə xanımın 45 illik əmək fəaliyyəti bu günlərdə elə çalışdığı qurumda - Elm və Təhsil Nazirliyində doğma kollektivinin əhatəsində yüksək səviyyədə qeyd olundu. Nazirliyin Aparat rəhbəri Mətin Kərimli Suriyyə Nağıyevaya "Azərbaycan Respublikası qabaqcıl təhsil işçisi" döş nişanını təqdim edərək elm və təhsil nazirinin ən xoş arzularını çatdırdı, onu kollektiv adından təbrik etdi. Bu münasibətlə keçirilən tədbir Suriyyə xanımın uzunillik əmək fəaliyyətinə verilən qiymətin ən gözəl ifadəsi idi.

Biz də "Azərbaycan müəllimi" olaraq Suriyyə Nağıyeva üçün özəl olan bir gündə elə çalışdığı Elm və Təhsil Nazirliyində onun qonağı olduq. Yazımızın qəhrəmanı ilə oxucularımızı tanış etmək üçün ötən illərə qayıtdıq.

### Həyat yolunun başlanğıcı

Bakı şəhərində anadan olan Suriyyə Nağıyeva orta təhsilini 190 nömrəli (indiki 189-190 nömrəli məktəb) tam orta məktəbdə alıb. 1979-cu ildə orta ümumtəhsil müəssisəsini bitirərək elə həmin ildə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun (indiki Azərbaycan Dövlət İqtisad Universiteti) Maliyyə və kredit fakültəsinə qəbul olunub və 1985-ci ildə ali təhsil ocağını bitirib.

### İlk addımlar - sistemin içində püxtələşən bir peşəkar

Suriyyə xanım peşəkar əmək fəaliyyətinə 9 dekabr 1980-ci ildə SSRİ Maarif Nazirliyinin (Elm və Təhsil Nazirliyi) İnzibati-təsərrüfat şöbəsində ekspeditor vəzifəsi ilə başlayıb. Bu başlanğıc ilk baxışda sadə görünə bilər, lakin məhz o illərdə formalaşan məsuliyyət hissi, dəqiqlik və intizam onun gələcək peşəkar yolunun əsas istiqamətini müəyyənləşdirib.

Həmsöhbətim özünün dediyi kimi, bir göz qırpımında keçən ötən illərini yada salır: "1980-ci ilin 9 dekabrını bugünkü kimi xatırlayıram. Gənc idim. İlk dəfə bu quruma gələndə gülərüzlə qarşılandım. Kollektiv tərəfindən mənə qaygıkeş münasibət göstərilirdi. 1982-ci ildə artıq nazirliyin Plan-maliyyə şöbəsində iqtisadçı kimi fəaliyyətimi davam etdirdim. Peşəkar mütəxəssislərdən öyrəndiklərim, əldə etdiyim təcrübə statistika və iqtisadi təhlilə olan marağımı daha da artırdı, bu sahədə inkişafıma əhəmiyyətli təsiri oldu".

Nazirlikdə gedən struktur dəyişiklikləri də Süriyyə Nağıyevanın fəaliyyətində sözün yaxşı mənasında öz müsbət təsirini göstərir. Bu illər ərzində iqtisadçı, aparıcı məsləhətçi vəzifələrində çalışan qəhrəmanımız hazırda fəaliyyətini Təhsilin iqtisadiyyatı şöbəsinin Statistika və hesabatların icmallaşdırılması sektorunda baş məsləhətçisi kimi davam etdirir.

45 illik fəaliyyəti dövründə o, yüzlərlə sənədin, minlərlə təhsil müəssisəsinin məlumatlarının dəqiqliyinə cavabdehlik daşıyıb. Təhsilin inkişaf göstəricilərinin düzgün formalaşdırılması, statistik təhlillərin və hesabatların icmallaşdırılması onun üçün yalnız iş yox, həm də vəzifə borcu olub.

Bu gün də öz fəaliyyətini sanki ilk iş günü olaraq qəbul edən Suriyyə xanım eyni şövqlə çalışır, hər bir addımında zəhmətin, dəqiqliyin və sadiqliyin nə qədər böyük dəyər daşıdığını sübut edir.



## Suriyyə Nağıyevanın həyat yolu

Suriyyə Nağıyevanın əməyi hər zaman yüksək qiymətləndirilib. Belə ki, o uzunillik səmərəli fəaliyyətinə görə 2017-ci ildə Təhsil Nazirliyinin Fəxri fərmanına, 2021-ci ildə isə ölkə başçısı İlham Əliyevin sərəncamı ilə "Dövlət qulluğunda fərqlənməyə görə"medalı ilə təltif edilib.

### Burada həm də ailə səadətini tapıb

Suriyyə xanım elə ailə səadətini də öz işlədiyi doğma qurumda tapıb. Onunla vaxtilə eyni şöbədə işəmiş həmkarı Eldar müəllimlə ailə qurub. Həmsöhbətimizdən öyrənirik ki, oğlu Məmməd də ata-anasını yolunu davam etdirir. O, Azərbaycan Dövlət İqtisad Universitetinin SABAH qruplarının "Maliyyə" ixtisası üzrə bakalvr təhsilini uğurla bitirib. Magistratura təhsilini isə "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2028-ci illər üçün Dövlət Proqramı" çərçivəsində İngiltərənin Mançester Universitetində "Riyazi maliyyə" ixtisası üzrə müvəffəqiyyətlə başa vurub.

### "Peşəkarlığın nəticəsi dəyərli olur"

Suriyyə Nağıyeva bugünkü gəncliyin yüksək bilik, eyni zamanda daha fərqli bacarıqlara malik olduğunu xüsusi qeyd edir. Elm və Təhsil Nazirliyində çalışan gənclərin fəaliyyətindən razılıq edərək onların çevik və daha çox öyrənmək əzmini təqdir edir: "Bu illər ərzində qazandığım təcrübəyə istinad edərək karyera qurmaq arzusunda olan gənclərə ilk növbədə onu demək istərdim ki, peşəkarlıq zamanla fomalaşır, amma nəticəsi həmişə dəyərli olur. Hər şey bilikdən və işə yanaşmadan başlayır. Çalışsınlar ki, seçdikləri sahəni dərindən öyrənsinlər və məsuliyyəti bacarıqlarından heç vaxt ayırmasınlar. Təcrübə mənə öyrədib ki, ən vacib keyfiyyət davamlılıq və dürüstlükdür. Kim işinə vicdanla yanaşırsa, istənilən kollektivdə özünəməxsus yeri olacaq. Bir də ki, həmişə yenilikləri izləmək lazımdır. Dünya dəyişir və bilik daim yenilənməlidir. Gənclərə arzu edirəm ki, məqsədlərindən yayınmadan özlərinə güvənərək irəliləsinlər".

### Geriyə baxanda: Qürur, minnətdarlıq və işinə bağlılıq

Geriyə dönüb baxdıqda hansı hissləri keçirirsiniz sualımıza cavab olaraq deyir ki, ötən 45 il onun üçün qürur gətirən nəticələrlə yadda qalıb: "Geriyə dönüb baxanda böyük qürur və məmnunluq hissi keçirirəm. Bu illər ərzində mənimlə bərabər çalışdığım sahədə də inkişaf baş verib. Çətinliklərim də olub, məsuliyyətli qərarlar alanda da daxili narahatlıqlarım olub. Bütün bunlar məni daha təcrübəli və işinə daha bağlı bir insan edib. Ən böyük sevincim isə odur ki, gördüyüm işin ölkənin təhsil sisteminə, xüsusilə məktəbəqədər və ümumi təhsil müəssisələrinin statistik hesabatların formalaşması prosesinə real təsiri olub. Geriyə baxanda zəhmətimin hədər getmədiyini görmək mənə böyük güvən və daxili rahatlıq verir. Nə xoş mənə ki, hər zaman sevdiyim və seçdiyim işlə məşğul olmuşam".

### Hər gün işə eyni həvəslə gəlməsinin səbəbi də...

Suriyyə Nağıyevanın işindən necə ürəklə, razılıq hissi ilə danışdığını müşahidə etdikcə sözün açığı ona qibtə etməmək mümkün deyil. Deyir ki, rəhbərliyin və kollektivin qayğısını hər zaman hiss etmək onu daha məsuliyyətli edir. Hər gün işə eyni həvəslə gəlməsinin səbəbi də elə bu mühit, bu dəyər və qarşılıqlı hörmət atmosferidir.

**Samirə KƏRİMOVA,**
**FOTO: Kənan QAFAROV**

# "ƏSRƏ BƏRABƏR 50 İL"

## Azərbaycan Memarlıq və İnşaat Universitetinin böyük inkişaf yoluna baxış

> "Güclü dövlət qurmaq üçün ilk növbədə bilikli, savadlı, yüksək hazırlıqlı mütəxəssislər yetişdirilməlidir".
>
> Heydər ƏLİYEV, Ümummilli Lider

Azərbaycan Memarlıq və İnşaat Universitetinin 50 illik yubileyinin qeyd edilməsi təkcə bir ali təhsil ocağının tarixinin daha bir mərhələyə çatması deyil. Bu yubiley, eyni zamanda, ölkəmizin memarlıq və inşaat təhsilinin inkişafına verilən dövlət qayğısının, milli mühəndislik məktəbinin formalaşmasına göstərilən xüsusi diqqətin göstəricisidir. Ulu Öndər Heydər Əliyevin ali təhsil sisteminə verdiyi dəyər və mühəndislik sahəsinə yönəlik strateji baxışı AzMİU-nun formalaşmasında, onun gələcək inkişaf konsepsiyasının müəyyənləşməsində həlledici rol oynayıb. Təsadüfi deyil ki, AzMİU məhz Ümummilli Liderin ölkəyə ilk rəhbərliyi dövründə yaradılmış, ikinci rəhbərliyi dövründə isə tarixi fərmanı ilə universitetimiz bugünkü adını alaraq yeni bir mərhələyə qədəm qoymuş, inkişafın istiqamətləri aydın şəkildə müəyyənləşdirilmişdir. Bu gün isə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə aparılan böyük quruculuq işləri, şəhərsalmanın vüsət alması, ağıllı şəhər, yaşıl memarlıq, enerji effektli tikinti kimi çağdaş yanaşmalar memarlıq və inşaat təhsilinə yeni tələblər formalaşdırır. AzMİU bu çağırışlara cavab vermək üçün yenilənmiş təhsil proqramları, mütəxəssis hazırlığının yeni strukturu, gücləndirilmiş elmi baza, beynəlmiləlləşmə və rəqəmsal transformasiya istiqamətində ardıcıl addımlar atır.



**Gülçöhrə MƏMMƏDOVA,**
*Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru, professor*

"Əsrə bərabər 50 il" devizini seçməyimiz təsadüfi deyil. Bu yarım əsr təkcə universitetin yaşı deyil - Azərbaycanın sürətli inkişaf yoluna verilmiş töhfələrin, minlərlə memar və mühəndisin yetişdirilməsi ilə formalaşan intellektual gücün, ölkənin quruculuq və bərpa işlərində ön sıralarda dayanmağının ifadəsidir. Eyni zamanda, bu, 1920-ci ildə yaradılmış İnşaat fakültəsindən başlayaraq toplanmış bütün təhsil təcrübəsinin və nailiyyətlərin universitetin bünövrəsini təşkil etməsinin göstəricisidir.

Bu gün Azərbaycan özünün ən sürətli inkişaf dövrünü yaşayır. Regionların yenilənməsi, işğaldan azad olunmuş torpaqların dirçəldilməsi, yeni şəhər və kəndlərin qurulması, müasir infrastruktur şəbəkələrinin yaradılması - bütün bu genişmiqyaslı proseslər təhsildə güclü mühəndis və memar hazırlığına olan ehtiyacı daha da artırıb. Universitetin yetirdiyi minlərlə mütəxəssis Azərbaycanın müasir şəhərlərini, binalarını, körpülərini, su sistemlərini, yollarını, kommunikasiya xətlərini - bir sözlə, ölkənin müasir simasını formalaşdırmağa və inkişafın qarşıya qoyduğu böyük tələblərə cavab verməyə qadir olmalıdır.

Universitetimizin tarixi rəsmi olaraq 1975-ci ildən başlasa da, onun kökləri daha çox dərindir. 1920-ci ildə Bakı Politexnik İnstitutunun tərkibində yaradılan İnşaat fakültəsi, 1930-1934-cü illərdə fəaliyyət göstərən İnşaat və Memarlıq İnstitutu, ötən əsrin müxtəlif mərhələlərində yenidən təşkil olunan fakültə və şöbələr bugünkü AzMİU-nun əsasını formalaşdırıblar.

70-ci illərdə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlişi ilə Azərbaycan qısa müddətdə kənd təsərrüfatı ölkəsindən sənaye ölkəsinə çevrildi. Bütün sahələrdə olduğu kimi, memarlıq və inşaat sahəsində də genişmiqyaslı layihələr reallaşdırıldı, yeni sənaye müəssisələri, yaşayış kompleksləri, mikrorayonlar tikilməyə başlandı. Məhz bu işlər bugünkü universitetimizin 1975-ci ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutu olaraq ölkədə inşaat-memarlıq sahəsində ixtisaslaşmış ilk ali məktəb kimi yaradılmasını zəruri etdi. Təhsil ocağına 1992-ci ildə universitet statusunun verilməsi, 2000-ci ildə isə Ümummilli Lider Heydər Əliyevin tarixi fərmanı ilə ali təhsil müəssisəsinin adının rəsmi şəkildə "Azərbaycan Memarlıq və İnşaat Universiteti" kimi təsdiqi bu inkişaf yolunun ardıcıl mərhələləridir. Bu tarixi ardıcıllıq göstərir ki, AzMİU-nun 50 illiyi həm də bir elm məktəbinin, bir ali ixtisas təhsili ənənəsinin, müasir dövrün memarlıq-inşaat düşüncəsinin formalaşmasının yubileyidir.

Bu gün AzMİU özünün yeni dövrünü yaşayır. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulması, böyük tikinti və nəqliyyat layihələrinin icrası, regionların davamlı inkişafı və müasir infrastrukturun formalaşdırılması üçün müasir tələblərə cavab verən mütəxəssis hazırlığı universitetimizin qarşısında duran böyük və məsuliyyətli vəzifədir.

Hazırda universitetin Memarlıq, İnşaat, Su təsərrüfatı və mühəndis kommunikasiya sistemləri, Tikinti-iqtisad, Mexanika və informasiya texnologiyaları, Nəqliyyat, Dizayn fakültələri ölkənin mühəndis təhsilinin aparıcı mərkəzlərindəndir. Universitetimizdə yüksək səviyyəli, təcrübəli mütəxəssislər və alimlərdən, eyni zamanda, gənc kadrlardan ibarət 600 nəfər professor-müəllim heyəti fəaliyyət göstərir. 3 dildə - Azərbaycan, ingilis və rus dillərində tədris aparılır, 24 ixtisas üzrə bakalavr pilləsində mütəxəssis hazırlığı həyata keçirilir. Magistratura səviyyəsində isə 53 proqram üzrə hazırlıq aparılır. Həmçinin universitetin nəzdində İnşaat Kolleci, Fizika-Riyaziyyat Təmayüllü Lisey, 2010-cu ildən etibarən isə Layihə İnstitutu mövcuddur. Son illərdə həyata keçirdiyimiz islahatlar tədris prosesini müasir tələblərə uyğunlaşdırmağa, tələbəmərkəzli tədris modelinə keçidi təmin etməyə, beynəlxalq səviyyədə universitetin tanıdılması və nüfuzunun artırılmasına yönəlib.

Bu gün qürurla qeyd edə bilərik ki, 50 il ərzində universitetdən 70 mindən çox memar, inşaat, nəqliyyat, hidrotexniki və meliorativ tikinti mühəndisi məzun olub. Respublikanın, demək olar ki, bütün iri tikinti layihələrində, şəhərsalma planlaşdırılmasında, mühəndis-kommunikasiya sistemlərinin quraşdırılmasında AzMİU məzunlarının imzası var. İşğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzurda aparılan geniş quruculuq işlərinin əsas icraçıları, layihə rəhbərləri, sahə mühəndisləri də məhz bizim məzunlardır. Bu fakt bir daha sübut edir ki, AzMİU yalnız təhsil müəssisəsi deyil, ölkənin inkişaf strategiyasının həyata keçirilməsində rolu olan milli intellekt mərkəzidir. Universitetin ölkə iqtisadiyyatının inkişafındakı rolunun daha da artması, istehsalatın tələblərinin təmin edilməsi və əlaqələrin gücləndirilməsi məqsədilə 50 illik yubleyi ərəfəsində AzMİU-nun Məzun Assosiasiyası yaradıldı. Yaradılmasından qısa zaman keçməsinə baxmayaraq Məzun Assosiasiyası artıq universitetin keçmişi, bu günü və gələcəyi arasında körpü rolunu oynayır. Bir ildən az vaxtda assosiasiya universitetin maddi-texniki bazasının gücləndirilməsi, laboratoriyalarının yenilənməsi, tələbələrin motivasiyasının artırılması və xeyriyyəçiliklə bağlı real işlər görüb. Məzun Assosiasiyası peşəkar əməkdaşlıq platforması olmaqla yanaşı, həm də universitetin tarixi yaddaşının, məzun birliyinin və sosial məsuliyyət ənənəsinin gücləndirilməsi deməkdir.

Bütün ölkəmizdə olduğu kimi, AzMİU-da da rəqəmsallaşma və Süni İntellekt Strategiyasının tələblərinə uyğun inkişaf istiqamətləri diqqət mərkəzindədir. Təhsilin məzmununun elektronlaşdırılması, rəqəmsal qiymətləndirmə sistemi, virtual laboratoriyalar və elektron tədris modulları mühəndis hazırlığında artıq əsas vasitəyə çevrilib. Bu prosesə təkcə texniki yenilənmə kimi baxmaq olmaz. Bu, təhsildə tamamilə yeni fəlsəfədir: daha çevik, daha şəffaf və tələbənin inkişaf motivasiyasını artıran bir yanaşmadır. Şübhəsizdir ki, bu proses inkişaf edən xətlə davam etdiriləcək.

Azərbaycan Respublikasının Prezidentinin "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün Süni İntellekt Strategiyası"nın təsdiq edilməsi haqqında imzaladığı Sərəncam ölkəmizdə rəqəmsal transformasiya prosesinin yeni mərhələsinə keçidi müəyyənləşdirir. Bu strategiya ali təhsil müəssisələrinin qarşısına intellektual texnologiyaların tətbiqi, rəqəmsal elmin inkişafı və yüksəkixtisaslı kadr hazırlığı sahəsində konkret vəzifələr qoyur. Strateji Sərəncamdan irəli gələn tələblər universitetimizin fəaliyyətində yeni prioritetlərin müəyyənləşməsinə səbəb olmuşdur. Azərbaycan Memarlıq və İnşaat Universiteti bu çağırışların cavabı olaraq rəqəmsal ekosistemin gücləndirilməsi, süni intellektə əsaslanan tədris və tədqiqat mühitinin formalaşdırılması istiqamətində ardıcıl addımlar atır.

Universitetdə ölkənin aparıcı IT şirkətləri ilə birlikdə rəqəmsal layihələrin hazırlanması, tələbələrin real mühəndislik tapşırıqları üzərində çalışma imkanlarının yaradılması, habelə süni intellekt üzrə praktik təlimlərin təşkili istiqamətində əməkdaşlıq genişləndirilir. Tələbə və müəllimlərin biliklərinin artırılması üçün AzMİU-da müxtəlif istiqamətlər üzrə IT kursları təşkil olunur. Proqramlaşdırma, süni intellektin əsasları, məlumatların analizi, rəqəmsal modelləşdirmə kimi sahələri əhatə edən bu kurslar beynəlxalq akkreditasiyaya malik partnyor şirkətlərin dəstəyi ilə həyata keçirilir. Tələbələrin ali təhsil diplomu ilə bərabər beynəlxalq sertifikatlar alması onların məşğulluq imkanlarını əhəmiyyətli dərəcədə artırır.

Qlobal texnologiya şirkətləri ilə qurulan tərəfdaşlıq sayəsində universitetdə beynəlxalq praktikanı əks etdirən birgə layihələr də həyata keçirilir. Xarici ali məktəblərlə birgə tədqiqat proqramları, akademik mübadilə, professor-müəllim heyətinin və tələbələrin qarşılıqlı səfərləri təşkil olunur. Süni intellekt, böyük verilənlər analitikası və rəqəmsal dizayn sahəsində ixtisaslaşmış universitetlərlə əməkdaşlıq AzMİU-nun potensialını daha da gücləndirir.

Müasir dövrdə təhsilin ölkənin iqtisadi inkişafında artan rolu, insan kapitalının prioritet istiqamət olması ali təhsilin beynəlxalq rəqabətliliyinin artırılmasını tələb edir. Beynəlmiləlləşmə ali təhsil müəssisəsinin bütün funksiyalarına: təhsilə, elmi tədqiqat fəaliyyətinə, idarəetməyə beynəlxalq standartlara söykənən yanaşmanın tətbiqi deməkdir. Beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi isə inkişafın vacib şərtlərindən biridir.





Beynəlmiləlləşmə prosesinin məntiqli davamı və universitetin qlobal ali təhsil standartlarına nə dərəcədə uyğun olmasının göstəricisi nüfuzlu beynəlxalq reytinq cədvəllərində yer almasıdır. "QS World University" reytinqində dünya səviyyəli universitetlər sırasına daxil olmaq və "QS Stars" yarışmasında maksimal - 5 ulduzla qiymətləndirilmək AzMİU-nun son illərdə əldə etdiyi nailiyyətlərdəndir.

"The World University" reytinqində ilbəil mövqeyimiz möhkəmlənir. "Green Metric", RUR və bir sıra digər reytinqlərdə iştirak edir və dünya universitetləri ilə müxtəlif istiqamətlərdə yarışa qatılırıq.

Bununla yanaşı, beynəlxalq səviyyəli ali təhsil ocağı olmağın mütləq göstəricilərindən biri hazırlanan ixtisas proqramlarının beynəlxalq akkreditasiyadan keçməsidir. Bu yolda atılan ilk uğurlu addımlar bakalavr səviyyəsində memarlıq (RİBA), inşaat və nəqliyyat tikintisi mühəndisliyi (IAAR), magistratura səviyyəsində isə inşaat mühəndisliyi (IAAR) ixtisasları üzrə təhsilin və tədrisin qabaqcıl standartlara uyğunluğunun təsdiqlənməsi, beynəlxalq qiymətləndirmənin qazanılmasıdır.

Beynəlxalq tərəfdaşlıqların genişlənməsi, xarici universitetlərlə çoxşaxəli əməkdaşlıq, müəllim və tələbə mobilliyi, ikili diplom proqramları və birgə tədqiqat layihələrinin miqyasının artırılması AzMİU-nu regionda mühəndislik, memarlıq və dizayn təhsili üzrə beynəlxalq standartlara uyğun aparıcı ali məktəblərdən birinə çevirib. Universitetin bu istiqamətdə həyata keçirdiyi ardıcıl fəaliyyətin tərkib hissəsi olaraq qlobal təhsil məkanında AzMİU həm öz mövqeyini möhkəmləndirir, həm də Azərbaycanın ali təhsil sisteminin beynəlxalq nüfuzunun yüksəlməsinə mühüm töhfə verir.

Hazırda AzMİU dünyanın müxtəlif ölkələrində yerləşən nüfuzlu ali təhsil müəssisələri ilə çoxölçülü əməkdaşlıq əlaqələrinə malikdir. Universitetin tərəfdaşlar şəbəkəsində İstanbul Texniki Universiteti və Yıldız Texniki Universiteti kimi Türkiyənin aparıcı ali məktəbləri, Milan Politexnik, La Sapiensa, Vestminster universitetləri kimi Avropanın yüksək reytinqli, habelə Cənubi Koreya, Çin, Mərkəzi Asiya ölkələrinin müxtəlif texnologiyayönümlü ali təhsil qurumları yer alır. Bu tərəfdaşlıqlar çərçivəsində tədqiqat mübadiləsi, müəllim və tələbə mobilliyi və rəqəmsal tədris mühitində birgə layihələrin icrası geniş şəkildə həyata keçirilir.

Universitetin beynəlxalq fəaliyyətində xüsusi yer tutan ikili diplom proqramları AzMİU tələbələrinə həm Azərbaycan, həm də tərəfdaş ölkələrin ali məktəblərinin diplomlarını əldə etmək imkanı yaradır. Hazırda ikili diplom proqramları Ankara Universiteti, Vestminster Universiteti, Texas Texniki Universiteti, Ege Universiteti, İstanbul Texniki Universiteti, Milan Politexnik Universiteti (memarlıq və dizayn ixtisasları) Leiriya Universiteti və Coruna Universiteti ilə uğurla həyata keçirilir.

Qeyd etmək lazımdır ki, beynəlxalq əməkdaşlıq vasitəsilə Azərbaycana qabaqcıl tədris metodologiyası, innovativ texnologiyalar və dünya təcrübəsi transfer olunur. Universitetimizin məzunları həm yerli, həm də qlobal əmək bazarında yüksək rəqabət qabiliyyətinə malik mütəxəssislər kimi formalaşır, ölkənin mühəndislik, memarlıq və dizayn sahələrində insan kapitalının inkişafına mühüm töhfə verirlər.

Ötən 50 il ölkəmizdə memarlar və inşaat sahəsi üzrə mühəndislər hazırlığında və universitetimizin bir ali təhsil ocağı olaraq inkişafında mühüm mərhələ olmuşdur. Məhz AzMİU-nun məzunları ötən əsrin 70-80-ci illərində və müstəqillik dövrünün son 25 ili ərzində ölkədə həyata keçirilən böyük tikinti və yenidənqurma fəaliyyətinin aparıcı mühəndis qüvvəsini təşkil etmişlər. Məzun və tələbələrimiz Vətənin müdafiəsi, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə fədakarcasına iştirak etmiş, qəhrəmanlıq göstərmiş, şəhidlik zirvəsinə ucalmışlar. Vətən müharibəsində Zəfəri canları bahasına yaxınlaşdıranların sıralarında AzMİU-nun 27 şəhid məzunu var. Onlar bizim qürur mənbəyimiz və tələbələrimiz üçün örnəkdirlər.

Prezident İlham Əliyevin Azərbaycanın yüksək templə inkişafına, beynəlxalq aləmdə rolunun və nüfuzunun artmasına, xalqın rifahının yüksəldilməsinə istiqamətləndirilmiş siyasi strategiyası ölkənin müasir tələblərə cavab verən kadrlarla təmin edilməsini vacib şərt olaraq ön plana çəkmişdir. "Qara qızılın insan kapitalına çevrilməsi" ideyası davamlı olaraq konkret fəaliyyətlərlə həyata keçirilməkdədir. AzMİU Azərbaycanın təhsil sisteminin bir hissəsi olaraq bu böyük məqsədə uyğun işini qurur və fəaliyyət strategiyasını planlaşdırır.

Universitetimizin dərin köklərə malik elm və təhsil ənənələri, ardıcıl həyata keçirilən yeniləşmə siyasəti, nüfuzlu və müasir professor-müəllim heyəti yeni dövrdə yeni tələblər səviyyəsində qarşıda duran vəzifələrin öhdəsindən gələcəyinə və Azərbaycanın ən səviyyəli elmi tədqiqat universitetlərindən birinə çevriləcəyinə əminlik yaradır.

Azərbaycan Respublikası
Elm və Təhsil Nazirliyi

# Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti

aşağıda adıçəkilən kafedrada vakant vəzifəni tutmaq üçün müsabiqə

**ELAN EDİR:**

*Ədəbiyyat və dillər kafedrası üzrə - baş müəllim - 1 yer*

Müsabiqədə kafedranın profilinə uyğun peşə-ixtisas hazırlığına, elmi ad və elmi dərəcələrə, elmi-pedaqoji təcrübəyə malik Azərbaycan Respublikası vətəndaşları, həmçinin mövcud qanunvericiliyin tələbləri gözlənilməklə xarici ölkə vətəndaşları iştirak edə bilərlər.

İddiaçılar müsabiqənin keçirilməsi üçün sənədlərini Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinə göndərə bilərlər.

**Ünvan:** Bakı şəh., AZ 1065, İnşaatçılar 39
**Telefon:** 599-00-54 (daxili-100)

**REKTORLUQ**




Elm və Təhsil Nazirliyinin elmi-metodik nəşri olan "Azərbaycan dili və ədəbiyyat tədrisi" jurnalının 2025-ci il üçün sonuncu buraxılışı - Cild 71, Say 4 (dekabr) çap edilib. Bu sayda oxuculara təqdim olunan elmi məqalələrdə Azərbaycan dilinin tədrisi və leksik-semantik xüsusiyyətləri, klassik və müasir ədəbiyyatın təhlili, dilin cəmiyyət həyatındakı mövqeyi, bədii mətnlərin pedaqoji əhəmiyyəti, ədəbi prosesin müxtəlif istiqamətləri, həmçinin şagirdlərdə düzgün tələffüz və dil bacarıqlarının formalaşdırılması kimi mövzular araşdırılır.

# "Azərbaycan dili və ədəbiyyat tədrisi" jurnalının 4-cü sayı işıq üzü görüb

Jurnalın bu buraxılışında pedaqogika üzrə elmlər doktoru, professor Nabat Cəfərovanın "Sifət" bəhsinin tədrisi problemi", filologiya elmləri doktoru, professor Sədaqət Həsənovanın "Azərbaycan dilində mənası dəyişən sözlər", pedaqogika üzrə fəlsəfə doktoru Bilal Həsənlinin "Ədəbiyyat dərslərində klassik əsərlərin təhlilinin sufizm və hürufizm ideyaları ilə əlaqələndirilməsinə dair", pedaqogika üzrə fəlsəfə doktoru Soltan Hüseynoğlunun "Bədii əsərin oxusunda əmək və yaradıcılıq", filologiya üzrə fəlsəfə doktoru Cahid Kazımovun "Müstəqil Azərbaycanda dil situasiyası", pedaqogika üzrə fəlsəfə doktoru Könül Məmmədovanın "Bədii mətnlər şagirdlərin mənəvi inkişafında əsas amil kimi", filologiya üzrə fəlsəfə doktoru Ulduz Qəhrəmanovanın "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatında milli xarakterlərin tənəzzülə uğrama problemi", filologiya üzrə fəlsəfə doktoru Aytən Bəylərovanın "Azərbaycan dilində "qara" sifətinin konnotativ mənaları", filologiya üzrə fəlsəfə doktoru Ramiz Qasımovun "Bədii ədəbiyyatda təbiət mövzusunun tədrisi: müasir problemlər və yanaşmalar", filologiya üzrə fəlsəfə doktoru Günel Hümmətovanın "Mahirə Nağıqızı poeziyası ədəbi düşüncə müstəvisində", filologiya üzrə fəlsəfə doktoru Mətanət Mehdiyevanın "İbtidai siniflərdə orfoepik qaydaların formalaşdırılması" və ADPU-nun müəllimi Aynur Bədəlovanın "Azərbaycan dilinin üslubi imkanlarının müxtəlifliyi" adlı məqalələri dərc edilib.

**Şölə RƏŞİDQIZI**

**"AZƏRBAYCAN MÜƏLLİMİ"**

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov

**Reklam və elanlar:** 539-20-77; elan@media.edu.az

**Ünvan:** AZ-1052, Bakı şəhəri, Nərimanov rayonu, Fətəli xan Xoyski, 109

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan nəşriyyatı" MMC-də çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya:** № 022327 **İndeks:** 0003

**Tiraj:** 37968 **Sifariş:** 2535

**Məsul növbətçi:** S.Kərimova

Azərbaycan Respublikası
Elm və Təhsil Nazirliyi

# Mingəçevir Dövlət Universiteti

kafedra müdiri vəzifəsini tutmaq üçün müsabiqə

**ELAN EDİR:**

*İqtisadiyyat kafedrası üzrə - 1 yer*
*Energetika kafedrası üzrə - 1 yer*

**Qeyd:** Ərizələrin qəbulu bu elan dərc edildikdən sonra 1 (bir) ay müddətindədir. Əsasnaməyə uyğun olaraq sənədlər (kadrların şəxsi qeydiyyat vərəqəsi, tərcümeyi-hal, ali təhsil, elmi dərəcə və elmi ad haqqında sənədlərin surəti, dərc olunmuş elmi əsərlərin, kəşf və ixtiraların təsdiq edilmiş siyahısı) rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir.

**Ünvan:** Mingəçevir şəhəri, AZ 4500, D.Əliyeva küçəsi 21.
www.mdu.edu.az, **E-mail:** info@mdu.edu.az
**Telefon:** (02427) 7-32-72

**REKTORLUQ**

# Etibarsız sayılır

**Azərbaycan İnşaat Mühəndisləri İnstitutu** tərəfindən 1994-cü ildə Abdullayev Oruc Əlimövsüm oğluna verilmiş AB-I-035641 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Çay fabriki qəsəbə tam orta məktəbin IX sinfini 2015-ci ildə bitirmiş Bayramova Fidan Çingiz qızına verilmiş A-573126 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dillər Universiteti** tərəfindən 2005-ci ildə Zeynalova Diana Əbussətovnaya verilmiş B-055724 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 15 nömrəli tam orta məktəbin IX sinfini 2009-cu ildə bitirmiş Allahverdiyev Röyal Rəfail oğluna verilmiş A-891748 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Ağdam rayon** 91 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Teymurova Gülnarə İnqilab qızına verilmiş B-321658 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti** tərəfindən 1992-ci ildə Abdurahmanova Könül Rəşid qızına verilmiş УВ-I-109820 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı Avropa Liseyini** 2018-ci ildə bitirmiş Qəhrəmanova Əminə Əmirxan qızına verilmiş E-105593 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt Dövlət Texniki Kolleci** tərəfindən 2007-ci ildə Xəlilova (Əliyeva) Rövşanə Etibar qızına verilmiş BB-II-050838 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Tərtər rayon** Qazyan kənd tam orta ümumtəhsil məktəbi 2004-cü ildə bitirmiş Abışov Elçin Razim oğluna verilmiş B-038863 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdam rayon** Qaradağlı kənd tam orta məktəbi 1988-ci ildə bitirmiş Fərzaliyev Müşfiq Alxan oğluna verilmiş 482323 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir şəhər** M.Əhmədov adına tam orta ümumtəhsil məktəbin (köhnə Dzerjinsk) VIII sinfini 1980-ci ildə bitirmiş Qasımov Ucar Mikayıl oğluna verilmiş 114194 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayon** Kəhrizli (Əzizbəyov) kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 2012-ci ildə bitirmiş Məmmədov Sərxan Ələsgər oğluna verilmiş A-247352 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayon** Qarasuçu kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 2007-ci ildə bitirmiş Kərimova Semnarə Adil qızına verilmiş A-408509 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayon** Aşağı Ağcakənd qəsəbə tam orta ümumtəhsil məktəbin IX sinfini 2008-ci ildə bitirmiş Sadıqova (Zeynalova) Şahnaz Zahid qızına verilmiş A-612434 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Füzuli rayon** Q.Namazəliyev adına Horadiz kənd tam orta məktəbin IX sinfini 1993-cü ildə bitirmiş Abdunova Mətanət Əsgər qızına verilmiş 060301 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 114 nömrəli tam orta məktəbi 2021-ci ildə bitirmiş Heydərov Fərid Arif oğluna verilmiş E-368703 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 15 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 1994-cü ildə bitirmiş Vəliyeva (Sadıqova) Təranə Ələddin qızına verilmiş B-089614 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qazax rayon** Aslanbəyli kənd tam orta ümumtəhsil məktəbi 2025-ci ildə bitirmiş Yaqubov Akşin Allahverən oğluna verilmiş E-823304 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 55 nömrəli tam orta məktəbin IX sinfini 2011-ci ildə bitirmiş Xəlilova (Gültekin) Gülnar Malik qızına verilmiş A-047937 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Qəbələ rayon** Kürd kənd tam orta məktəbin IX sinfini 2006-cı ildə bitirmiş Qurbanova (Abdullayeva) Aişə Şamil qızına verilmiş A-338690 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Xocavənd rayon** Tuğ kənd 1 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Nəcəfova Afaq Akif qızına verilmiş B-411143 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zərdab şəhər** 1 nömrəli məktəb-liseyi 2019-cu ildə bitirmiş Əhmədzadə Nihal Asif oğluna verilmiş E-191543 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 225 nömrəli tam orta məktəbin IX sinfini 1994-cü ildə bitirmiş Cəfərova Samirə Bəxtiyar qızına verilmiş əsas təhsil haqqında arayış itdiyi üçün etibarsız sayılır.

**Tovuz rayon** Əyyublu kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 2021-ci ildə bitirmiş Hüseynov Nazim Ceyhun oğluna verilmiş C-574625 nömrəli ümumi orta təhsil haqqında attestat, 2023-cü ildə verilmiş E-624826 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qusar rayon** Şirvanlı kənd tam orta ümumtəhsil məktəbi 2018-ci ildə bitirmiş Mahmudov Ayaz Beybut oğluna verilmiş E-091696 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qusar rayon** Çiləgir kənd tam orta ümumtəhsil məktəbi 2001-ci ildə bitirmiş Ağalarova Simuzər İsrafil qızına verilmiş A-460936 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Xırdalan şəhər 2 nömrəli tam orta məktəbi 2020-ci ildə bitirmiş Kərimzadə Çingiz Baxış oğluna verilmiş E-345516 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan Müəllimlər İnstitutu** tərəfindən 2024-cü ildə Ələsgərova Leyla Həmzə qızına verilmiş C-233933 nömrəli bakalavr diplomu və diploma əlavə tapıldığı üçün etibarlı sayılır.

**N.Nərimanov adına Azərbaycan Tibb Universiteti** tərəfindən 1994-cü ildə Hashemı Mehraddın Gholamrezaya verilmiş ДИ-211159 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan Dövlət Universiteti** tərəfindən 2021-ci ildə Abbasova (Bədəlova) Aytac Rəfail qızına verilmiş C-118603 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Qəbələ rayon** Bum qəsəbə tam orta məktəbin IX sinfini 2017-ci ildə bitirmiş Umarov Elvin Qalib oğluna verilmiş C-055269 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Göygöl rayon** Çaykənd kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 2020-ci ildə bitirmiş İbrahimov Nəsir İldırım oğluna verilmiş C-385856 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 49 nömrəli orta texniki peşə məktəbi (indiki Sənaye və Yüksək Texnologiyalar üzrə Sumqayıt Dövlət Peşə Təhsil Mərkəzi) tərəfindən 1990-cı ildə Ağayev Kamal Fərhad oğluna verilmiş 451432 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 49 nömrəli orta texniki peşə məktəbi (indiki Sənaye və Yüksək Texnologiyalar üzrə Sumqayıt Dövlət Peşə Təhsil Mərkəzi) tərəfindən 1995-ci ildə İvanova (Volkova) Tatyana Vasilevnaya verilmiş 0979681 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bərdə rayon** Şorəlli kənd tam orta məktəbi 2010-cu ildə bitirmiş Zülfüqarlı Cəlal Əli oğluna verilmiş B-706762 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2007-ci ildə Vəliyev Emil Mirəzim oğluna verilmiş B-099946 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2016-cı ildə Mahmudov Ayaz Mübariz oğluna verilmiş A-088351 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan Dövlət Universiteti** tərəfindən 2024-cü ildə Əliyev Sədat Məqsəd oğluna verilmiş C-246751 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı Plan İqtisad Texnikumu** tərəfindən 1981-ci ildə Babayeva İradə Əli qızına verilmiş ДТ-I-753738 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Neftçala Peşə Məktəbi** tərəfindən 2018-ci ildə Heydərov Amil Heydər oğluna verilmiş A-102658 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 106 nömrəli tam orta məktəbin IX sinfini 1998-ci ildə bitirmiş Əliyeva Samirə Faiq qızına verilmiş AR-00591 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəki rayon** Kiş kənd 1 nömrəli tam orta ümumtəhsil məktəbi 2011-ci ildə bitirmiş Şəfayətov Pərviz Vaqif oğluna verilmiş A-066973 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dillər Universiteti** tərəfindən 2018-ci ildə Nağıyeva (Aslanova) Cavahir Əflatun qızına verilmiş C-005390 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 100 nömrəli tam orta məktəbi 2018-ci ildə bitirmiş Cəlilov Anar Cəlal oğluna verilmiş E-135923 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Kəlbəcər rayon** 63 nömrəli tam orta ümumtəhsil məktəbi 2018-ci ildə bitirmiş Şükürov İsmət Qismət oğluna verilmiş E-114711 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bərdə rayon** Şirvanlı kənd tam orta məktəbi 2001-ci ildə bitirmiş Əkbərova (Mustafayeva) Nərmin Arif qızına verilmiş A-537738 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir rayon** Carlı kənd tam orta ümumtəhsil məktəbi 2009-cu ildə bitirmiş Umudov Yusif Heybət oğluna verilmiş B-633233 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəki rayon** Kiş kənd 4 nömrəli tam orta ümumtəhsil məktəbi 2015-ci ildə bitirmiş İbrahimov Tərlan Teymur oğluna verilmiş A-432624 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəki rayon** Qoxmuq kənd tam orta məktəbin VIII sinfini 1982-ci ildə bitirmiş Tahirova (Abdulxalıqova) Sədayə Heydər qızına verilmiş AЗ-390485 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Ocaqlı kənd 1 nömrəli tam orta məktəbi 2023-cü ildə bitirmiş Məmmədli Yasər Azər oğluna verilmiş E-636038 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 75 nömrəli tam orta məktəbin IX sinfini 1996-cı ildə bitirmiş Əlimərdanova İlahə Tosif qızına verilmiş 072601 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə Dövlət Universiteti** tərəfindən 2020-ci ildə Zeynalova Sevinc Famil qızına verilmiş C-089160 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Ürgə kənd tam orta məktəbin IX sinfini 2007-ci ildə bitirmiş Baxşiyeva (Həmidova) Aynur Şahab qızına verilmiş A-513153 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Şəki şəhər** 8 nömrəli tam orta məktəbin IX sinfini 1995-ci ildə bitirmiş Feyzullayeva İradə Beydulla qızına verilmiş Ş-0472 nömrəli ümumi orta təhsil haqqında attestat əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Evrika Liseyini** 2025-ci ildə bitirmiş Məmmədli İsmayıl Elxan oğluna verilmiş E-877177 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdam rayon** Mahrızlı kənd tam orta məktəbi 1989-cu ildə bitirmiş Məmmədov Emin Lətif oğluna verilmiş 611254 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Balakən şəhər** 2 nömrəli tam orta ümumtəhsil məktəbi 2015-ci ildə bitirmiş İsmayılzadə İlyas Nazim oğluna verilmiş A-465354 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Balakən rayon** Qaysa kənd tam orta ümumtəhsil məktəbi 2022-ci ildə bitirmiş Dağıstanlı Şamil İsmayıl oğluna verilmiş E-514743 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

İdrak Liseyinin rəhbərliyi və pedaqoji kollektivi liseyin musiqi müəllimi Təranə Süleymanovaya qardaşı

**RAMİL QURBANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İdrak Liseyinin rəhbərliyi və pedaqoji kollektivi liseyin ingilis dili müəllimi Zeynəb Salamovaya həyat yoldaşı

**NAMİQ SALAMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.